# Oktyabr - mübarizə ayı

**İnamdan kəmənd hörüb,**
**Zirvəyə dırmanırdıq!..**

İnsanın könlünün məhbubu Vətən! Bu sözün ecazkarlığının sehrinə düşənlər vətənpərvər olurlar. O vətənpərvər isə lazım gələndə Vətənə canlı sipər, qayalarında mamır olub bitərlər. Cismlərini Vətənə qurban edər, ruhən yaşayarlar. Ruhları dumanlara yoldaş olar, günəşin şəfəqlərini gözlərinə eynək edib vətənin hüdudlarını seyr edərlər. Vətənin göylərini açıq səma kimi «duruldar», qara buludlara düşmən kəsilərlər! Ocaqlardan çıxan tüstü, evlərdə yanan işıqlar, torpağında küləklərin sığal çəkdiyi zəmilər, əkin sahələri, dağlarında, düzlərində mal-davarın ot otlayıb mələşməsi,toy-bayramlar, bir sözlə Yer üzündə firavan həyat izləri, insanların simasıeda xoş «ifadə» və s. həyatın davam etməsi onların ruhlarını sevindirər. Onlar cənnətməkan sahibləri, vətənləşən igidlər, şəhadət yolçularıdır. Onlar Vətən uğrunda döyüşənlərdir.

Vətən onlara oğul dedi... 2020-ci ilin 27 sentyabrında Ali Baş Komandan və ölkə Prezidenti İlham Əliyevin qisas müharibəsinin başlanması ilə əlaqədar xalqa müraciəti vətənpərvər insanları vətəni müdafiə və torpaqlarımızın işğal altında olan ərazilərinin azad olunması üçün döyüşlərə səslədi.

Hər kəs bu döyüşlərdə iştirak etməyi özünə müqəddəs borc bildi. Könüllü olaraq müharibəyə getmək istəyən gənclər hərbi komissarlığa axışdılar. Onlar arasında qəbələlilər də üstünlük təşkil edirdilər. Axı general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov bu qədim diyarın övladı olmuş, burada doğulmuşdu. İgidliyi hər kəsin qəlbində bir dastan olan Polad şücaəti qisas müharibəsinin labüdlüyünü bəyan etdi. Onun iyul hadisələrinin qurbanı olması gəncləri torpaqlarımızın düşmən tapdağından azad olunması üçün müharibəyə, döyüşlərə və döyüş yolu ilə işğaldan azad olmağa inandırdı...

Vətən Müharibəsində yüzlərlə qəbələli gənc iştirak etdi, onlarca şəhidlərimiz oldu, döyüşlərdə sağlamlıqlarını itirən, qazi titulları qazanan gənclərimiz şəhidlərin intiqamını aldılar. Ən qızğın döyüşlər məhz oktyabr ayında davam etmişdi...

Qəzetimizin bu günkü nömrəsində oktyabr ayında doğulan və şəhadətə qovuşan şəhidlərimizi bir daha yad edəcəyik. Axı onlar Vətən üçün, xalq üçün, torpaqlarımızın bütövlüyü üçün döyüşmüşlər! Dəmir yumruqda birləşərək Zəfərə yol açmışlar.

**Oktyabr şəhidləri**

2020-ci il 27 sentyabrda başlanan və 44 gün davam edən müharibədə oktyabr ayında rayonumuzdan döyüşə gedən hərbçilər arasında şəhadətə qovuşanlar:

Ruslan İdrisov oktyabrın 1-də, Mikayıl Mikayıllı oktyabrın 1-də, Elvin Abdurahmanov oktyabrın 2-də, Ümman Əmiraslanov oktyabrın 3-də, Aqşin Qədirzadə oktyabrın 4-də, İsmayıl Kərimov oktyabrın 6-da, Vasif Süleymanov oktyabrın 6-da, Tural Cəlilov oktyabrın 7-də, Taleh Şirinov oktyabrın 8-də, Elməddin Mustafayev oktyabrın 10-da, İmaməddin Yusifov oktyabrın 10-da, Əfqan Abdurahmanov oktyabrın 10-da, Sərvan Eyyubov oktyabrın 12-də, Azər Musazadə oktyabrın13-də, Adəm Heydərov oktyabrın 13-də Əsəd Zeynallı oktyabrın 13-də, Natiq İsmayılov oktyabrın 18-də, Rüstəm Atakişiyev oktyabrın 23-də, Coşqun Bayramov oktyabrın 24-də, Xeyirbəy Səfərçinov oktyabrın 24-də, İqbal Babayev oktyabrın 28-də, Aydın Bayramov oktyabrın 28-də, Tapdıq Ağayev oktyabrın 30-da.

Onlar həmişə yaddaşlarda yaşayacaqlar. Şəhidlərimizin məkanları cənnət olsun!

**BİBİXANIM.**

# Zəfərə aparan ay

Yaddaşlarımıza həkk olunmuş oktyabr ayının müasir Azərbaycan tarixindəki özəlliyini bilmək üçün təkcə 2020-ci ilin oktyabr ayının xronikasına nəzər salmaq kifayətdir. Belə ki, 2020-ci ilin oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan, Talış, Cəbrayıl rayonunun 5 kəndi, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, oktyabrın 4-də Cəbrayıl şəhəri və 9 kəndi, oktyabrın 5-də Cəbrayıl rayonunun 3 kəndi, Oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsi və Şur kəndi, Cəbrayıl rayonunun 4 kəndi, Füzuli rayonunun 2 kəndi,Tərtər rayonunun Çaylı kəndi, 14 oktyabrda Füzuli rayonunun 3, Xocavənd rayonunun 5 kəndi, 15 oktyabrda Cəbrayıl rayonunun Doşulu kəndi və Xocavənd rayonunun 4, Füzuli rayonunun Arış kəndi, 16 oktyabrda Xocavənd rayonunun 3 kəndi, 17 oktyabrda Füzuli şəhəri və 7 kəndi, 18 oktyabrda Xudafərin körpüsü, 19 oktyabrda Cəbrayıl rayonunun 13 kəndi, 20 oktyabrda Zəngilan şəhəri və 6 kəndi, Füzuli rayonunun 7 kəndi, Cəbrayıl rayonunun 7 kəndi, Xocavənd rayonunun 5 kəndi, 21 oktyabrda Zəngilan rayonunun 13 kəndi, Cəbrayıl rayonunun 4, Füzuli rayonunun 3 kəndi, oktyabrın 22-də Zəngilan rayonunun 14 kəndi, Cəbrayıl rayonunun 4, Füzuli rayonunun 3 kəndi, 23 oktyabrda Xocavənd rayonunun 2, Cəbrayıl rayonunun 5, Zəngilan rayonunun 2, Qubadlı rayonunun 4 kəndi, 25-26 oktyabrda Zəngilan rayonunun 4, Cəbrayıl rayonunun 6, Qubadlı şəhəri və 7 kəndi, 28 oktybrda Zəngilan rayonunun 4, Füzuli rayonunun 1, Cəbrayıl rayonunun 5, Qubadlı rayonunun 3 kəndi, oktyabrın 30-da Cəbrayıl rayonunun 4 kəndi, Zəngilan rayonunun 2 kəndi, Qubadlı rayonunun 3 kəndi Müzəffər Ordumuz tərəfindən işğaldan azad edilmişdir.

**Şəhla XƏLİLQIZI,**
**«Qəbələ»nin ştatdankənar müxbiri.**

# Ukraynalı uşaqlar Qəbələdə

Bu il növbəti dəfə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-




Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gələn və Qəbələ Uşaq Reabilitasiya Mərkəzinə yerləşdirilən ukraynalı uşaqlar və gənclər Qəbələ Dövlət Tarix-Bədii Qoruğu və Qəbələ Arxeoloji Mərkəzində olublar.

Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonlarına baxış keçirən tur iştirakçılarına qoruğun ekskursiyaçısı Xəyyam Yusifov tərəfindən qoruq ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan tarixi, maddi və mədəniyyət nümunələri barədə geniş məlumat verilmişdir.

Daha sonra kollektiv üzvləri Qəbələ Arxeoloji Mərkəzinin akt zalında dəvət olunmuşlar. Qoruğun direktoru Zahir Kərimov tərəfindən qonaqlara mərkəz haqqında geniş məlumat verilmişdir.

Toplantı çərçivəsində ənənəvi olaraq qonaqlara Qafqaz Albaniyasının paytaxtı-Qəbələ filmi nümayiş olunmuş. Ukraynalı uşaqlar tərəfindən Ukraynanın Dövlət himni səsləndirilmiş, qrupun nümayəndə rəhbərinə xatirə hədiyyəsi təqdim olunmuşdur.

Sonra Ukraynalı uşaqlar Qoruğun Səlbir və Qala adlanan arxeoloji ərazilərinə səfər etmişlər. Qonaqlara burada dövrü olaraq aparılmış arxeoloji qazıntılar, yerli və xarici arxeoloqlar tərəfindən aşkar edilmiş maddi-mədəniyyət nümunələri olan ictimai bina qalıqları, təsərrüfat quyuları, ocaq yerləri, su xətləri, qala bürcləri və tarixi tapıntılar haqqında geniş məlumatlar verilmiş, öz möhtəşəmliyi ilə tarixi sınaqlardan bu günümüzədək gəlib çıxan qala divarlarına yaxından baxış keçirmişlər.

Sonda kollektiv üzvləri üçün çay süfrəsi təşkil olunub, xatirə şəkilləri çəkdirilib.

Ukraynalı uşaqlar xoş təəssüratlarla Qəbələ Dövlət Tarix-Bədii Qoruğundan ayrılmışlar.

**«Qəbələ»**

# Reabilitasiya xidmətlərinə cəlb olunub

Ukraynadakı müharibədən zərər çəkən və reabilitasiya xidmətləri ilə təmin edilmək üçün ölkəmizə gətirilən daha 30 ukraynalı uşaq Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində reabilitasiya xidmətlərinə cəlb olunub. On günlük sosial reabilitasiya proqramı çərçivəsində uşaqlar üçün peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil olunacaq.

# Hər dərdə dəva

Təbiət həyatın reallığıdır. Canlı təbiət bütün orqanizmlərin cəmidir. Canlı orqanizm biosferanın tərkib hissəsi olan ekosistemdə yaşayır. Təkamül nəzəriyyəsinə görə canlı orqanizmin inkişafı insanın yaranmasına gətirib çıxarmışdır. İnsan isə ən şüurlu varlıq kimi təbiətin canlı aləmindən öz yaşam tərzində istifadə etmişdir və edir.

Qida bütün canlıları yaşadan vasitədir. Onun istifadə etdiyi qidalar arasında balın da xüsusi əhəmiyyəti vardır. Balı isə bildiyiniz kimi, təbiətin möcüzəsi olan arılar istehsal edərlər.

**Möcüzəli həşərat**

Arılar müxtəlif çiçəklərdən qida maddəsi toplayıb onları orqanizmində yenidən işləyərək qiymətli məhsullara - bal, vərəmum, mum, arı zəhəri, arı südü və s. çevirirlər. Bal qiymətli qida məhsulu sayılır və o, insanların xəstəliklərinin müalicəsində uğurla tətbiq olunur. Onu da qeyd edək ki, təmiz bal düzgün saxlandıqda öz keyfiyyətini 4 əsr itirmir. Arıçılıqla məşğul olan peşəkarların dediklərinə görə balın xarlaması heç də onun təmiz olmadığı demək deyildir. Xarlama onun duru haldan bərk hala keçməsidir.

Həmçinin kənd təsərrüfatı bitkilərinin tozlanmasında da arılar çox əhəmiyyətlidir. Onlar kütləvi uçuş keçirərək bitkilərin 80 - 90 faizinin tozlanmasını təmin edirlər.

Ana arı yayda gün ərzində 2000, rekordçu arılar isə 3500 yumurta qoya bilir ki, bu da onun öz çəkisindən iki dəfə çoxdur. 12 kiloqram bal hasil etmək üçün onlar 120 - 150 min uçuş edib, 6 - 10 milyon çiçəkdən nektar toplayırlar. Arılar 1 kiloqram bal toplamaq üçün 360 - 450 min kilometr uçuş edirlər. Bu məsafə isə ekvator üzrə yer kürəsini 11 dəfə dolanmağa bərabərdir.

Arılar haqqında maraqlı faktlar çoxdur. Bu kiçik varlığın özünəməxsus maraqlı sirləri vardır.

Arıçılıq təsərrüfatı ilə məşğul olanlar bu sirlərlə qarşılaşır və onların həyatlarını öyrənirlər. Öz qı-




sa ömrünü başa vurmuş arılar qışda pətəkdə ölürlər. Yayda isə ölümünün yaxınlaşdığını hiss edərək pətəyi tərk edib çöldə tələf olurlar ki, başqa arılara əziyyət verməsinlər. Bir maraqlı faktı da qeyd edək ki, insan üçün ölüm dozası 300 - 500 arının eyni vaxtda sancmasıdır.

**Arı təsərrüfatı**

Arıçılıq - arı məhsullarından faydalanmaq, arıya baxım, bəsləmə, qoruma, onun daha çox səmərə verməsi istiqamətində fəaliyyətdir.

Arıxana - arıçılıq təsərrüfatını inkişaf etdirmək üçün arı ailələri zəruri avadanlıq və tikililərlə birlikdə müəyyən ərazidə yerləşdirilmiş pətəklikdir.

Arıçılıq məhsulları - bal arılarından alınan məhsullar bal, mum, vərəmum (vərəmum, qara mum), arı zəhəri, arı südü, çiçək tozu, güləm və s.

Müəyyən coğrafi, iqlim və bal yığma şəraitində daha yaxşı uyğunlaşan və yüksək məhsuldarlıq göstəriciləri ilə fərqlənən arı cinslərinin ölkə ərazisində müvafiq bölgələr üzrə yetişdirilməsinə və saxlanmasına dair bölgüsü də arıçılıq təsərrüfatına aiddir.

Balyığma mənbələri - bal arılarının təbii yem mənbəyi kimi istifadə etdiyi nektarlı və şirəli bitkilər, həmçinin apifitoməhsul - arıçılıq məhsulları və bitki xammalı qarışığından hazırlanmış bioloji aktiv məhsul da bu təsərrüfata aiddir.

Arı ailəsində erkək arılardan başqa bütün arıların işi vardır. Qış aylarında pətəkdə ancaq ana və işçi arılar olur. Çünki qış gəlməmiş erkək arılar ya pətəkdən bayıra atılır, ya da öldürülürlər. Mövsüm bitəndən sonra işçi arılar erkək arılar üçün pətək açmayə başlayırlar. Ana arı isə şan qovuğuna yumurta qoyur.

Payızda arı yuvası yem ehtiyatı ilə komplektləşdirilir. Yaza qədər hər arı ailəsi üçün şanda 5-6 kiloqram bal saxlanılır. Həmçinin şəkər şərbətindən də istifadə olunur.

**Baba sənətini yaşadan**

Rayonumuzda arıçılıq təsərrüfatı ilə məşğul olanlar çoxdur. Başqa sənəti olmaqla bərabər arıçılığı özünə hobbi seçənlər, həmçinin irsən bu peşəkarların davamçıları da vardır. Belə peşəkar arıçılardan biridir Anar Məmmədov. O, Məmmədağalı kənd sakinidir.

Təbiəti zəngin, təbiliyi daha çox özündə qoruyub saxlayan

**(Ardı 8-ci səhifədə).**